

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 117 (21.778)

21 iyun 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyunun 20-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başlayıb.

Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək müqəddəs "Qurani-Kərim"in nazil olduğu, on bir ayın sultanı mübarək Ramazan ayı münasibətilə açılan iftar süfrəsinə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə və qonaqlara dərin minnətdarlığını bildirib.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

Sonra iftar süfrəsi açılıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 20 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və Azərbaycan Ordusunun qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçuları təltif edilmişlər. Təltif olunanlar arasında Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da vardır.

**Mənsimov Tehran Cavid oğlu – polkovnik**

"Vətən uğrunda" medalı ilə,

**Cəlalov Zaur Alxaz oğlu – polkovnik**

"İgidliyə görə" medalı ilə,

**Eyyubov Teymur Tərlan oğlu – general-mayor**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

***Hər bir dövlətin varlığının qorunmasında ordu müstəsna əhəmiyyətə malikdir. Azərbaycan tarixən güclü ordu ənənələrinə malik olsa da, müstəqilliyimizin yenidən qazanılmasından sonrakı dövrdə bu ənənələri bərpa etmək elə də asan olmadı. Ölkəmizin ciddi böhranla üzləşdiyi ötən əsrin sonlarında vətənimizin ərazi bütövlüyünün pozulması milli ordu quruculuğunu zəruri etsə də, ayrı-ayrı şəxslərə və siyasi partiyalara tabe hərbi birləşmələrin yaranması həmin dövrdə ordu quruculuğu sahəsində ciddi səhvlərin buraxılmasına gətirib çıxardı. Hakimiyyətdəki özbaşınalıq, vahid komandanlığın olmaması, ordu quruculuğu sahəsində əməli işlərin görülməməsinin nəticəsi o oldu ki, qısa müddət ərzində torpaqlarımızın bir qismi işğal olundu, müxtəlif faciələrlə qarşılaşdıq. Bir sözlə, ayrı-ayrı silahlı qruplaşmalar arasındakı qarşıdurmalar ölkəmizdə ciddi problemlərin yaranmasına gətirib çıxardı. Respublikamızda daxili sabitliyin pozulması, torpaqlarımızın bir-birinin ardınca işğal olunması nəinki müstəqilliyimizin itirilməsi, həm də Azərbaycanı sonu görünməyən bir məhvə sürükləyirdi. Yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı ölkəmizi bu məhvolma burulğanından xilas etdi.***

# Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malikdir

## *Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə təlimləri bunu bir daha təsdiq etdi*



Həmin dövrdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ictimai-siyasi vəziyyət ürəkaçan deyildi. Muxtar respublikanın şimal sərhədləri boyunca edilən hücumlar, ölkəmizin digər regionları ilə əlaqələrin kəsilməsi, ərzaq, yanacaq qıtlığı kimi problemlər Naxçıvanın vəziyyətini gündən-günə daha da ağırlaşdırırdı. Belə bir vaxtda xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi bu qədim Azərbaycan diyarını böyük fəlakətlərdən qorudu. Məhz ulu öndərin atdığı qətiyyətli addımlar nəticəsində Naxçıvan təleyin ağır sınaqlarından çıxaraq varlığını qoruyub saxladı. Ordu quruculuğu prosesinə ötən əsrin yetmişinci illərindən başlanılsa da, müstəqilliyimizin ilk illərində bu proses ulu öndərin rəhbərliyi ilə Naxçıvanda yenidən bərpa olundu. Ötən müddətdə Silahlı Qüvvələrimizin Naxçıvanda yerləşən hərbi birləşmələri böyük inkişaf yolu keçərək daha da təkmilləşdi, düşmən üçün arzuolunmaz fenomenə çevrildi. Muxtar respublikada həyata keçirilən ordu quruculuğu prosesi 2013-cü ildə yeni bir mərhələyə qədəm qoydu. Belə ki, həmin ilin dekabrında muxtar respublikada 5-ci Ordu Korpusunun bazasında Əlahiddə Ümumqoşun Ordu yaradıldı. Ötən 4 il ərzində Əlahiddə Ümumqoşun Ordu müxtəlif təyinatlı müasir döyüş texnikaları ilə təmin olunaraq şəxsi heyətin sayı dəfələrlə artırıldı. Güclü maddi-texniki baza muxtar respublikamızın quru sərhədləri ilə bərabər, hava məkanının da mükəmməl mühafizəsinin təmin edilməsinə şərait yaratdı.

Ölkə başçısı muxtar respublikaya hər səfərində buradakı hərbi hissələrin vəziyyəti ilə yaxından tanış olur, ordu quruculuğu sahəsində görülən işləri yüksək qiymətləndirir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, buradakı hərbi hissələrdə böyük quruculuq tədbirləri həyata keçirilir, zabit və əsgərlər üçün lazımi xidmət şəraiti yaradılır, yeni əsgər yataqxanaları, əsgəri-məişət kompleksləri istifadəyə verilir. Bundan əlavə, hərbi qulluqçuların mənzil-məişət şəraiti yaxşılaşdırılır, onlar yeni mənzillərlə təmin olunurlar. Xidmətdə fərqlənənlərin isə əməyi layiqincə qiymətləndirilərək mükafatlandırılır. Həyata keçirilən tədbirlər sayəsində muxtar respublikada birləşmə və hissələrin döyüş qabiliyyəti və peşəkarlığı artırılıb, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı xeyli yüksəldilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun mütəmadi olaraq hərbi hissələrdə olması, şəxsi heyətlə görüşləri hərbçilərimizi ruhlandırmaqla yanaşı, xalq-ordu birliyinin nümunəvi gücünü də ortaya qoyub.

Naxçıvanın hərbi gücünün artırılmasının prioritet istiqamət olduğunu bildirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev bu haqda deyib: ***"Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur... Naxçıvanın hərbi potensialı elə olmalıdır ki, istənilən təcavüzə tutarlı, layiqli cavab verə bilsin. Bu gün bu artıq reallıqdır. Gələcək illərdə görüləcək əlavə tədbirlər hesabına biz Naxçıvanda daha da böyük hərbi potensial yaradacağıq. Buna imkan vardır".***

İstənilən ordunun gücü aid olduğu ölkənin iqtisadi potensialından, maddi-texniki təminatından və şəxsi heyətin vətənpərvərlik ruhundan çox asılıdır. Bu gün ölkəmizin dinamik iqtisadi gücü ordumuzun ən müasir texnika və döyüş silahları ilə təmin olunmasına, şəxsi heyətin hərtərəfli hazırlığına şərait yaradıb. Bu sahədə görülən işlərin nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordu yarandığı gündən müxtəlif təlimlərdə iştirak edir, şəxsi heyətin döyüş hazırlığı yüksəldilir. Keçirilən təlimlərdə birgə əks-hücum əməliyyatlarının təşkili və aparılması, taktiki-hava desantının düşmən bölmələrinin arxasına atılması və hakim yüksəkliklərin ələ keçirilməsi, hücumda olan qoşunların dəstəyi üzrə hava hücumundan müdafiə qoşunlarının qarşılıqlı fəaliyyətinin öyrənilməsi, bundan əlavə şəxsi heyətin gecə dağlarda fəaliyyəti, silah və döyüş texnikasının gecə vaxtı tətbiqi məqsədilə taktiki gecə təlimlərinə cəlb edilməsi ordumuzun gücünü artırıb. Son illərdə təlimlərin keçirilməsində əhəmiyyəti ilə seçilən tərəflərdən biri də budur ki, Əlahiddə Ümumqoşun Ordu bu əməliyyatları NATO-nun ikinci ən böyük gücü sayılan Türkiyə Silahlı Qüvvələrinin müvafiq qoşun növləri ilə birgə keçirir.

12-15 iyun tarixlərində Naxçıvanda növbəti Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin keçirilməsi də muxtar respublikada aparılan ordu quruculuğunda əhəmiyyətli nailiyyətlərin əldə olunduğunu göstərir. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən keçirilən budəfəki birgə əməliyyat taktiki təlimləri mühüm tərəfləri ilə diqqəti cəlb edirdi. Bu təlimdə Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri ilə yanaşı, Əlahiddə Sərhəd Diviziyasının, Əlahiddə Əməliyyat Briqadasının və Mülki Müdafiə Alayının bölmələrinin, ümumilikdə, 5 minə yaxın şəxsi heyəti, 250-dən artıq zirehli və 500-ə yaxın avtomobil texnikası cəlb edilib. Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətləri arasında əməliyyatların birgə icra edilməsində uzlaşmış fəaliyyətə nail olunması, qoşunların idarə edilməsində vahid prosedураların işlənib hazırlanması və Əlahiddə Ümumqoşun Ordu ilə müxtəlif güc strukturlarının birgə fəaliyyətinin planlaşdırılması məqsədini daşıyan təlim 3 mərhələdə keçirilib. Təlimin birinci mərhələsində Əlahiddə Ümumqoşun Ordunun, digər güc strukturlarının və Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri tam döyüşə hazırolma vəziyyətinə gətirilərək düşmənin dayandırılması və əks-zərbə əməliyyatı planlaşdırılması aparılıb. İkinci mərhələdə əks-zərbənin endirilməsi, düşmənin darmadağın edilməsi və itirilmiş vəziyyətin əlverişli hədlər üzrə bərpa edilməsi, üçüncü mərhələdə isə əks-hücumu davam etdirərək, düşmən ehtiyatlarının məhv edilməsinin başa çatdırılması və əlverişli ərazi sahələrinin nəzarət altına alınması tapşırıqları icra olunub. Habelə təlimdə ssenariyə əsasən düşmənin fəaliyyətinin izlənməsi, vacib obyektlərin koordinatlarının dəqiq təyin olunması məqsədilə pilotsuz uçuş aparatları və vizual müşahidə vasitələrindən istifadə etməklə kəşfiyyat bölmələrinin fəaliyyəti izlənib. Müxtəlif artilleriya vasitələrindən, xüsusilə son illərdə hərbi ekspertlər tərəfindən "Cəhənnəm silahı" adlandırılan və Silahlı Qüvvələrimizin də arsenalında mühüm yer tutan "TOS-1A" müasir ağır odsaçan sistemlərindən istifadə olunaraq şərti düşmən mövqelərinin məhv edilməsi həyata keçirilib.

Təlimi yaxından izləyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iyunun 15-də Əlahiddə Ümumqoşun Ordunun silahlanmasına daxil olmuş yeni silah, texniki avadanlıqlar və pilotsuz uçuş aparatlarına baxıb, Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərinin başa çatması və Azərbaycan xalqının Milli Qurtuluş bayramı münasibətilə şəxsi heyəti təbrik edib. Ali Məclisin Sədri cənab Vasif Talıbov deyib: ***"...Azərbaycan xalqının Milli Qurtuluş tarixinin mühüm bəhrələrindən biri də Azərbaycan-Türkiyə birliyinin daha da möhkəmlənməsidir. 1993-cü ildə xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan-Türkiyə münasibətlərini bir millətin iki dövləti səviyyəsinə qaldırmışdır. Hərbi əməkdaşlıq haqqında sazişə əsasən keçirilən hərbi təlimlər bu birliyin, dostluğumuzun və qardaşlığımızın daha bir parlaq ifadəsi oldu... Birgə hərbi təlim bir daha təsdiq etdi ki, ordunun gücü yalnız silah və texniki təminatla ölçülmür. Ordunun gücü həm də onun sıralarında xidmət edən şəxsi heyətin ruh yüksəkliyi, möhkəm iradəsi, vətənpərvərliyi və peşəkarlığı ilə ölçülür. Hərbi təlimlərdən çıxan nəticə budur ki, Azərbaycan və Türkiyə ordusu peşəkar olduğu qədər də vətənpərvərdir. Şəxsi heyətlərimiz ən yüksək mənəvi keyfiyyətlərə malikdirlər. Bu, bizim ən böyük nailiyyətimizdir".***

Təlimdə qarşıya qoyulmuş tapşırıqların vaxtında və layiqincə yerinə yetirilməsi onu göstərdi ki, Əlahiddə Ümumqoşun Ordu Naxçıvanın dayanıqlı və etibarlı müdafiəsinə tam hazırdır. Ötən əsrin 90-cı illərində düşmənlə qarşı-qarşıya primitiv ov tüfəngləri, bəzi hallarda isə əliyalın dayanan Naxçıvan bu gün öz təhlükəsizliyini ən müasir silah və texnikalarla təmin edir. Əlahiddə Ümumqoşun Ordunun bu cür təlimlər sayəsində artan gücü nəinki muxtar respublikanın etibarlı müdafiəsinə, eyni zamanda düşmən mövqelərinin dərinliklərində lazımi əməliyyatların aparılmasına imkan verir.

Ordu quruculuğu tükənməyən bir prosesdir. Yəni müasir dünyada istənilən ölkə öz ordusunda modernləşmə aparır, hərbi təlimlər keçir, döyüş texnikaları yeniləri ilə əvəz olunur, peşəkarlığın yeni metodları tətbiq edilir. Bu baxımdan yanaşsaq, Əlahiddə Ümumqoşun Ordunun yaradılması ilə muxtar respublikamızın müdafiəsinin gücləndirilməsində, təhlükəsizliyimizin yüksək səviyyədə qorunmasında yeni bir tarixi dövrə qədəm qoyulub. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər onu göstərir ki, Əlahiddə Ümumqoşun Ordu bu gün qədim Naxçıvanın keşiyində inamla dayanır, muxtar respublikamızın müdafiəsində ona həvalə edilmiş missiyanı şərəflə yerinə yetirir.

**Səbuhi HƏSƏNOV**



# Gözəlliyin və müasirliyin ünvanı Qıvraq qəsəbəsi

*Şəhərdən seçilməyən qəsəbə*

13 yaşı tamam olan, bütün yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri aparılmış Kəngərli rayonu bu gün müasirlik görkəmindədir. Görülən işlər nəticəsində Qıvraq qəsəbəsi müasir rayon mərkəzinə çevrilib.

Məlumat üçün bildirək ki, Qıvrağın yerləşdiyi ərazinin bir hissəsindən 7-8 il bundan əvvəl əkin sahələri kimi istifadə edilib. Naxçıvan-Sədərək magistral yolunun solunda yerləşən kənd muxtar respublikanın ən böyük yaşayış məntəqələrindən biri olmasına baxmayaraq, burada da yeni tikilmiş obyektlər barmaqla sayılası qədər az olub. İdarəetmənin təkmilləşdirilməsi məqsədilə yaradılan yeni rayonun mərkəzinə çevrildikdən sonra qəsəbədə geniş kompleks quruculuq tədbirləri start götürüb. Qısa müddət ərzində müxtəlif istiqamətli tikililər istifadəyə verilib. Rayonun idarə, müəssisə və təşkilatları üçün müasir layihə əsasında yeni binalar inşa olunub. Həmin binalarda çalışanlara hərtərəfli iş şəraiti yaradılıb. Qəsəbəarası yollara asfalt çəkilib, gözoxşayan gülkarlıqlar salınıb.

Bu günlərdə qəsəbə yenə də quruculuq ab-havası ilə nəfəs alır. Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə hazırda Qıvraqda böyük bir obyektin tikintisi həyata keçirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Kəngərli Rayon İdarəsinin kollektivi zirzəmi ilə birlikdə yeddimərtəbəli ictimai yaşayış binasının inşası ilə məşğuldur. 48 mənzildən ibarət olacaq binanın zirzəmisi ticarət mərkəzi üçün nəzərdə tutulub. Binanın hər mərtəbəsində 8 mənzil yerləşəcək. Bu tikili Qıvrağı daha da gözəlləşdirəcək.

Həqiqətən də qısa müddətdə Kəngərli rayonunda şəhərtipli qəsəbənin salınması muxtar respublikada düzgün seçilən yolun ifadəsi, torpağa, yurda bağlı insanların sabaha cavabdehlik hissinin əməli nəticələridir. Bütün bunlar qəsəbə sakinlərinin qurub-yaratmaq əzminə öz təsirini göstərir.

*Qəsəbə sakinlərinin ən çox üz tutduqları ünvan: Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı*

Park qəsəbənin hər yerindən görünür və sözün həqiqi mənasında, ulu öndərin adına layiq istirahət guşəsidir. Gülçiçəyə, yaşıllığa bürünmüş park daim insanlarla dolub-daşır. Məlumat üçün bildirək ki, 2012-ci il may ayının 30-da parkın açılış mərasimində ölkə Prezidenti cənab İlham Əliyev iştirak edərək bu münasibətlə qıvraqlıları, ümumilikdə, Kəngərli rayonunun sakinlərini təbrik edib, belə tədbirlərin gələcəkdə də davam etdiriləcəyini bildirib: ***“Biz iki il əvvəl də sizinlə görüşmüşük. İki il əvvəl ulu öndərin abidəsinin açılışında bərabər idik. Mən çox şadam ki, bu iki il ərzində Kəngərli rayonunda böyük işlər görülmüşdür. Burada, doğrudan da, gözəl mərkəz yaradılmış, yeni inzibati binalar tikilmişdir, indi fərdi evlər də tikilməkdədir. Gözəl Mədəniyyət Evi tikilmişdir. Yəni Kəngərli rayonunun inzibati mərkəzi artıq yaradılmış və böyük dərəcədə inkişaf etmişdir. Bu, məni çox sevindirir. Çünki Naxçıvan Muxtar Respublikasının hər bir tərəfində, hər bir rayonunda sürətli inkişaf gedir və getməlidir... Bu gün gözəl Mədəniyyət Evinin açılışında toplaşmışıq. Bir neçə il əvvəl Naxçıvanda Heydər Əliyev adına möhtəşəm mədəniyyət mərkəzinin açılışında iştirak etmişdik. İndi isə Kəngərli rayonunda Mədəniyyət Evinin açılışında iştirak edirik. Bu, böyük rəmzi məna daşıyır. Çünki bir neçə il əvvəl Kəngərli rayonu inzibati ərazi kimi mövcud deyildi. Bir neçə il bundan əvvəl Vasif Talıbov belə təşəbbüslə çıxış etmişdi. Mən bu təşəbbüsü təkcə kağız üzərində deyil, əməldə dəstəklədim və qısa müddətdə rayon yaradıldı. Qeyd etdiyim kimi, bu gün rayonun artıq inzibati mərkəzi vardır. Bu mərkəz böyüyəcəkdir və əminəm ki, gələcək illərdə Kəngərli rayonunda bundan da gözəl və yaxşı işlər görüləcəkdir”.***

Qəsəbə sakinlərinin mənalı istirahəti üçün hərtərəfli şərait yaradılmış parka daimi su xətti çəkilib, gülkarlıqlar salınıb. Uşaqlar da unudulmayıb. Onlar üçün müxtəlif oyun qurğuları quraşdırılıb. Elə buradaca görüşdüyümüz rayon sakini Yusif İmanovun qəsəbə haqqında fikirlərini öyrənirik. O deyir ki, torpağa, xalqa bağlılıq, əzmkarlıq, təşəbbüskarlıq olan yerdə hər şeyə nail olmaq mümkündür. Burada nələr yaradıldığını özünüz də görürsünüz. Bəlkə də, neçə illər əvvəl bu barədə söhbət getsəydi, buna heç kəs inanmazdı. Bu gün Kəngərli sakinlərinin əsl istirahət yeri olan bu parkda dincələnlər ulu öndər Heydər Əliyev siyasətinin konkret bir rayonun timsalında uğurla davam etdirildiyini, bu siyasətin ölkəmizin gələcəyinə hesablandığını görürlər. Bir daha inanırlar ki, bu siyasətin alternativi yoxdur və bu siyasət Azərbaycanın inkişafına xidmət edir. Sevinirəm ki, bugünkü gənclik də bu həqiqəti dərk edir. Ona görə gəncliyin adını çəkirəm ki, dövlətimizin gələcəyi onlara etibar olunub.

Parkın yaxınlığında ucaldılan möhtəşəm bir bina olan rayon Mədəniyyət Evindən daim çal-çağır səsi gəlir. Bu ünvanda rayonun mədəni həyatını bütün çalarları ilə görmək olar. Mədəniyyət Evinin foyesində bir-birindən zəngin olan bir neçə sərgi nümayiş etdirilir. Sərgilərdən birində muxtar respublikanın, o cümlədən Kəngərli rayonunun sosial-iqtisadi inkişafının göstəriciləri tamaşaçılara təqdim olunur. Digər bir sərgi ərazi bütövlüyümüz uğrunda şəhidlik zirvəsinə ucalmış vətən oğullarımıza həsr edilib. Milli dəyərlərimizi özündə əks etdirən sərgi də maraqla qarşılanır. Mədəniyyət Evində “Kəngər” instrumental ansamblı, böyüklərdən və uşaqlardan ibarət “Yallı” kollektivləri, qızlardan ibarət “Gülüm hey” folklor qrupu yaradılıb. Bu kollektivlər rayonda və muxtar respublikada keçirilən müsabiqələrdə, mədəniyyət tədbirlərində yaxından iştirak edirlər. Uşaq “Yallı” kollektivi və “Gülüm hey” folklor qrupu 2012-ci ildə “Milli dəyərlər ili” ilə bağlı keçirilən “Milli dəyərlərimiz – milli sərvətimiz” folklor və muğam müsabiqəsində fərqləndiyinə görə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanı və hədiyyələri ilə təltif olunub. “Yallı” kollektivi vaxtilə rayon kəndlərinin toy məclislərində, el şənliklərində ifa edilən “Sarı gəlin” yallısına yeni həyat bəxş edib.

Mədəniyyət Evində ulu öndərimiz Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti ilə bağlı tədbirlərin keçirilməsi davamlı xarakter alıb. Burada yaradılmış “Heydər Əliyev guşəsi” öz zəngin tərtibatı ilə diqqəti çəkir. Müntəzəm olaraq rayon məktəblərinin şagirdləri buraya gəlir, onlara dahi şəxsiyyətin həyat və fəaliyyəti barədə ətraflı məlumat verilir. Məqsəd isə ondan ibarətdir ki, müstəqil Azərbaycanın memarı və qurucusu, dahi öndər Heydər Əliyev irsinin böyüklüyü şagirdlərə dərindən aşılansın, gənclərimizin gələcək həyat yollarına işıq tutsun, ümummilli liderin irsi qiymətli milli sərvət kimi yaşadılsın, nəsillərdən nəsillərə ötürülsün.

*Qıvrağı gəzərkən...*

Qəsəbədə kompleks quruculuq tədbirlərinə başlanarkən buradakı inzibati ərazi dairəsi üzrə nümayəndəlik də unudulmayıb. Bu təşkilatın da yerləşdiyi ikimərtəbəli qəsəbə mərkəzi tikilib, ətrafda gülkarlıqlar və yaşıllıq zolaqları salınıb. Burada müxtəlif təşkilatların birgə fəaliyyətinə şərait yaradılıb.

Qıvraqlılar yaşadıqları qəsəbənin daha da gözəlləşməsi üçün keçirilən tədbirlərdə fəallıq göstərirlər. Bu yolla böyük meyvə bağı salınıb. Bu gün artıq həmin bağlardan məhsul toplanılır. Müntəzəm olaraq keçirilən iməciliklərdə yaşıllıq zolaqlarının salınması, meyvə tinglərinin əkilməsi, mövcud ağaclara qulluq edilməsi diqqət mərkəzində saxlanılır. Məqsəd aydındır: gənc rayonun mərkəzi daha da gözəl olsun. Rayon sakinləri onu da unutmurlar ki, muxtar respublikaya Sədərək və Şahtaxtı gömrük-keçid məntəqələrindən keçərək gələn xarici qonaqlar Naxçıvan şəhərinə gedərkən bu qəsəbədən keçirlər. Qədim diyar haqqında ilk təəssüratlar buradan yaranır. Odur ki, qəsəbənin təmizliyinə və abadlığına xüsusi diqqət yetirilir. Hər yerdə səliqə-sahman göz oxşayır. Hiss olunur ki, buna sakinlərin özləri də maraqlıdırlar. Qəsəbə məktəbinin, ötən ay istifadəyə verilmiş uşaq bağçasının, digər təşkilatların ərazilərində aparılan iməciliklərdə fəallıq göstərən qıvraqlılar qısa müddət ərzində qəsəbədə həyata keçirilən işlərə görə qürur hissləri duyurlar.

Buradakı təhsil ocağına da quruculuq işlərindən xeyli pay düşüb. Bir neçə il əvvəl məktəb üçün müasir layihə əsasında yeni bina inşa olunub. Tədrisin səviyyəsini yüksəltmək üçün burada hərtərəfli şərait yaradılıb. Aprel ayının 14-də istifadəyə verilən, müasir arxitektura üslubunda tikilmiş uşaq bağçası qəsəbəyə daha bir gözəllik gətirib.

Bağçanın müdiri Flora Əhmədova deyir ki, Kəngərli rayonunda uzun illər uşaq bağçası olmayıb. Bu gün müasir uşaq bağçasının istifadəyə verilməsi ailələrin, hər bir valideynin və uşaqların böyük sevincinə səbəb olub. Artıq işləyən anaların rahatlığı təmin edilib. Çünki uşaqlarımızı müasir məktəbəqədər tərbiyə müəssisəsinə etibar edirik. Yeni uşaq bağçası həm gələcəyimiz olan uşaqlara, həm də ailələrə göstərilən diqqətin təzahürüdür. Bu gün hər bir qıvraqlı öz yaşayışından razıdır. Çünki yaxşı yaşamaq və işləmək üçün yüksək şərait yaradılıb. Bütün bunlar muxtar respublikada insan amilinə böyük qayğının ifadəsidir. Davamlı xarakter alan belə qayğı hər birimizin məsuliyyət hissini daha da artırır.

*Sakinlər müasirliyin təntənəsi olan yurd yerində görülən işlərdən razılıqlarını bildirirlər*

Yazımızın əvvəlində rayondakı təşkilatlar üçün yeni binaların tikilməsi, həmin təşkilatlarda çalışan əməkdaşlara yaradılan şərait barədə qısa məlumat verdik. Rayona gəlmişkən onların fəaliyyəti ilə də maraqlandıq. Əhali ilə söhbət etdik.

Qəsəbə ziyalılarından Səmrəddin Əhmədov deyir ki, bütün təşkilatlarda əhaliyə nümunəvi xidmətlər göstərilir, qıvraqlıların mövcud problemlərinin həllinə həssaslıqla yanaşılır. Sakinlərin işlə təminatı, rabitə xidmətindən istifadəsi, onlara lazımi səviyyədə tibbi xidmətin göstərilməsi diqqət mərkəzində saxlanılır. Təbii ki, bu da qıvraqlılar tərəfindən yüksək dəyərləndirilir, onların qurub-yaratmaq əzmini yüksəldir.

Digər qəsəbə sakini İntiqam Əbilov da söhbətə qoşularaq bildirir ki, son illər muxtar respublikada insanlara çox böyük diqqət və qayğı göstərilir. Bütün bunları bizim Kəngərli rayonunda yaşayan insanlar da qədərincə qiymətləndirirlər. Bu gün rayon mərkəzinə çevrilən Qıvraq qəsəbəsinin də siması belə qayğı hesabına əsaslı surətdə dəyişib. Burada yaşamaqdan zövq alıram.

Sürücü Zahid Cəfərov isə fikirlərini belə bölüşdü: – Ona sevinirəm ki, bu gün Qıvraqda yaşayanlar yaradılanların, qurulanların qədrini bilirlər. Bilirlər ki, bütün bunlar onlar üçündür, gələcək nəsil üçündür. Qəsəbəyə dövlətimizin göstərdiyi böyük qayğıya görə minnətdarlığımı bildirirəm.

Elə digər qıvraqlılar da müasirliyin təntənəsi olan bu yurd yerində görülən işlərdən razılıqlarını ifadə etdilər, burada yaşamağın sevincindən danışdılar. Kim olduğumu da soruşdular. Sevinciniz bol olsun! – deyib özümü təqdim etdim:

✍ Muxtar MƏMMƏDOV

## Muxtar respublikada taxıl biçininə başlanılıb



***Hazırda Babək, Ordubad, Culfa və Kəngərli rayonlarında taxıl biçini mütəşəkkil keçirilir.***

Taxıl biçinində iştirak edəcək kombayn, maşın və mexanizmlərin ahəngdar işləməsini təmin etmək məqsədilə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən zəruri ehtiyat hissələri alınıb gətirilib. Eyni zamanda cəmiyyət tərəfindən servis xidməti də yaradılıb. Taxıl zəmilərində yanğın təhlükəsizliyi qaydalarına riayət olunması ilə bağlı kombaynçılar arasında maarifləndirmə tədbirləri aparılıb, bütün kombaynlar yanğınsöndürmə balonları ilə təchiz edilib.

Həmçinin taxıl biçininin optimal müddətdə və keyfiyyətlə başa çatdırılması üçün 92 taxılbiçən kombayn, 125 lafet, 250 presvuran və 80 yükünü özüboşaldan avtomaşın saz vəziyyətə gətirilib. Biçində iştirak edəcək kombaynların 22-si “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə, 70-i isə fiziki və hüquqi şəxslərə məxsus texnikalardır.

Toplanılacaq taxıl “Bərəkət Buğda Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən qəbul ediləcək. Taxıl tədarükü ilə əlaqədar hazırlıq işləri yekunlaşıb. İstehsalçılardan buğdanın hər kiloqramı 30, arpanın hər kiloqramı isə 25 qəpikdən qəbul olunacaq.

**Xəbərlər şöbəsi**

## Arı ailələrinin sığortalanması ilə bağlı maarifləndirici tədbir

***İyunun 20-də Şahbuz rayonunun Batabat yaylağında Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi və Naxçıvan Muxtar Respublikası “Arıçılar İctimai Birliyi” arıçı sahibkarlarla maarifləndirici tədbir keçirib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası “Arıçılar İctimai Birliyi”nin sədri Vaqif Məmmədov bildirib ki, muxtar respublikada arıçılığın inkişafı məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” təsdiq edilib. Belə ki, dövlət proqramının icrası muxtar respublika əhalisinin arıçılıq məhsullarına olan tələbatının yerli istehsal hesabına tam ödənilməsinə və ixracının artırılmasına, arıçılıq məhsulları istehsalı sahəsinə investisiya qoyuluşunun artımına nail olunmasına, arı ailələrinin sayının 100 minə çatdırılmasına imkan verəcəkdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin əməkdaşı Natiq Hümbətov qeyd edib ki, arı ailələri yoluxucu xəstəliklərdən, xüsusi təhlükəli ziyanvericilərin hücumundan, yanğın, çovğun, dolu, ildırım vurmasından sığortalanır. Arı ailələri dəyərinin 70 faizi məbləğində sığorta olunur. Arı ailələrinin sığortası üzrə sığorta tarifi isə sığorta məbləğinin 5 faizi həcmində müəyyən olunur. Məsələn, 1 arı yeşiyinin dəyəri 150 manat olarsa, onun sığorta məbləği 105 manat müəyyənləşdirilir. Sığortahaqqı isə 5 faiz tariflə hesablanaraq 5 manat 25 qəpik həcmində ödənilir. Sahibkarlar hər bir arı yeşiyi üçün bu məbləği ödəməklə onu sığorta etdirə bilərlər. Arı ailələrinin sığortalanması könüllü qaydada aparılır.

Şahbuz Rayon Dövlət Sığorta Agentliyinin direktoru Nuran Xəlilov bildirib ki, sığorta mexanizmi vasitəsilə arıçılıq təsərrüfatlarına verilən sığorta zəmanəti baş verə biləcək hər hansı gözlənilməz hadisələrdən onların daha çox zərər görməməsinə və gələcəkdə öz təsərrüfatlarını genişləndirməyə imkan verən çox mühüm dövlət qayğısıdır.

Sonda arıçıları maraqlandıran suallar cavablandırılıb.

✍ Əli CABBAROV

## “Xalq teatrlarının muxtar respublika festivalı – 2017” başa çatıb



***Festivalın son günü Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı böyük rus şairi Aleksandr Sergeyeviç Puşkinin “Motsart və Salyeri” faciəsi əsasında hazırlanmış tamaşanı teatrsevərlərə təqdim edib.***

Böyük rus şairi A.S.Puşkinin yazdığı kiçik faciələrdən biri olan “Motsart və Salyeri” əsəri dramatizmi və psixoloji gərginliyi ilə diqqəti çəkir. İtalyan bəstəkarı Antonio Salyeri və böyük Avstriya bəstəkarı Volfqanq Amadey Motsart haqqında çoxlarına məlum olan rəvayət, bir sıra musiqi və bədii əsərlərin mövzusuna çevrilən hadisələr böyük şairin faciəsində də canlandırılıb. Salyerinin Motsartı zəhərləməsi haqqında rəvayət bu əsərin əsas mövzusudur.

Quruluşçu rejissor Nəsimi Məmmədzadə həm də səhnə əsərinə bədii və musiqi tərtibatı verərək maraqlı tamaşa yaratmağa nail olub. Salyeri kimi mürəkkəb və ziddiyyətli bir obraz Nəsimi Məmmədzadənin ifasında canlı və təbii görünür. Azərbaycan Respublikasının Əməkdar artisti Neymət Sultanov böyük bəstəkar Motsartın hərtərəfli istedadını və qeyri-adi taleyini tamaşaçıya təqdim etməyi bacarıb.

Tamaşadan sonra muxtar respublikanın mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Sərəncamına uyğun olaraq 6-20 iyun tarixlərində keçirilən xalq teatrlarının növbəti muxtar respublika festivalına bu gün yekun vurulur. O qeyd edib ki, xalq teatrlarının bu cür festivallarda iştirakı kollektivlərin fəaliyyətini stimullaşdırıb. Ümumilikdə, xalq teatrlarının işinin daha səmərəli təşkilində, özfəaliyyət kollektivlərinə istedadlı gənclərin cəlb edilməsində belə tədbirlərin keçirilməsi böyük əhəmiyyət kəsb edir. İnanırıq ki, xalq teatrlarının kollektivləri gələcəkdə daha aktual, rəngarəng və maraqlı tamaşalarla çıxış edəcək, peşəkar teatr sənətimizə istedadlı sənət adamları qazandıracaqlar.

Nazir mədəniyyətin inkişafına göstərilən yüksək diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə mədəniyyət işçiləri adından minnətdarlığını bildirib, festivalda iştirak edən xalq teatrlarına uğurlar arzulayıb.

Sonra xalq teatrlarının bütün üzvləri tamaşadakı geyimlərində səhnəyə çıxıblar. Festivalda “Ən aktual mövzulu tamaşa” nominasiyasına Babək Rayon Xalq Teatrının “Xəcalət” tamaşası, “Ən yaxşı rejissor işi” nominasiyasına Şərur Rayon Xalq Teatrının rejissoru Nəsimi Məmmədzadə, “Ən yaxşı səhnə tərtibatı” nominasiyasına Şahbuz Rayon Xalq Teatrı, “Ən yaxşı aktyor” nominasiyasına Naxçıvan Şəhər “Gənclik” Xalq Teatrının üzvü Akif Əsədov, “Ən yaxşı aktrisa” nominasiyasına isə Ordubad Rayon Xalq Teatrının üzvü Günəş Ağayeva layiq görülüb. Onlara festivalın diplomları təqdim olunub.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsi festivalda iştirak edən kollektivləri fəxri fərmanla təltif edib.

Festival “Mən aktyoram” mahnısının sədaları altında başa çatıb.

**Əli RZAYEV**

*“Naxçıvan” Universitetinin konfrans zalında keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.*

## Məzun günü keçirilib

Universitetin rektoru, professor İsmayıl Əliyev çıxışında məzunları təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor ali təhsil ocağının fəaliyyəti barədə məlumat verərək bildirib ki, bu gün “Naxçıvan” Universiteti, sözün əsl mənasında, inkişaf mərhələsini yaşayır. İsmayıl Əliyev ali təhsil ocağının bu gün dünyanın bir çox nüfuzlu universiteti ilə əməkdaşlıq etdiyini bildirərək deyib ki, 2014-2015-ci tədris ilinə qədər 11 ixtisasın olduğu “Naxçıvan” Universitetində bu il artıq 15 ixtisas üzrə kadr hazırlığı aparılır. Bu il universitetdə bakalavr pilləsi üzrə 188 tələbə məzun olur. Sevindirici haldır ki, gənclərimiz intellektual və yaradıcılıq potensiallarını daim artırır, təhsildə uğurlar qazanır, müxtəlif dövlət orqanlarında, icra strukturlarında, özəl bölmədə geniş təmsil olunurlar.

Ali təhsil ocağının tədris işləri üzrə prorektoru İbrahim Kazımbəyli məzunları təbrik edib, muxtar respublikada təhsilə göstərilən qayğıdan danışıb. Tədbirdə valideynlər və məzunlar çıxış edərək universitetdə yaradılan şəraitə və gənclərə göstərilən qayğıya görə minnətdarlıq ediblər.

Sonra universitetin ictimai və mədəni həyatında fərqlənən bir qrup məzun mükafatlandırılıb.

Tədbirin bədii hissəsində tələbələrin ifasında səslənən maraqlı musiqi nömrələri, rəqslər iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

**Nuray ƏSGƏROVA**

*Tarixi abidələrimiz milli sərvətimizdir*

## Qarabağlar türbəsində qədim və orta əsr memarlıq elementləri əks olunub



***Naxçıvan Muxtar Respublikasında yerləşən tarix və mədəniyyət abidələri yalnız Azərbaycan üçün deyil, həm də Yaxın Şərq və Cənubi Qafqaz xalqlarının tarixinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Muxtar respublikamızdakı bir çox tarixi abidələr dünyada bənzəri olmayan mədəniyyət inciləridir. Onlardan biri də Qarabağlar Türbə Kompleksidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2016-cı il 4 iyul tarixdə “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” Sərəncam imzalayıb. Bu sərəncam Naxçıvanda yerləşən tarix və mədəniyyət abidələrinin daimi dövlət qayğısı ilə əhatə olunduğunu bir daha təsdiq edir.***

Araşdırmalar Qarabağlar türbəsində qədim və orta əsr memarlıq elementlərinin birləşdiyini təsdiq edir. Tarixi mənbələrin verdiyi məlumata görə, Qarabağlar orta əsrlərdə Azərbaycanın əsas şəhərlərindən biri, mühüm ticarət və sənətkarlıq mərkəzi olub. Qarabağlar ətrafında böyük orta əsr yaşayış yerlərinin, karvansarayların aşkar olunması onun tarixi İpək Yolunun üzərində yerləşməsi ilə bağlı olmuşdur. Vaxtilə bu kəndin ərazisini də əhatə edən şəhərin Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üstündə yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli tərəqqi etmişdi. Şəhər, adından da göründüyü kimi, çoxlu bağ və yaşıllıqlarla örtülmüşdü.

Bəzi mənbələrin məlumatlarına görə, şəhərin əsası XII əsrdə Şirvanşah Mənüçöhr tərəfindən qoyulub. Qarabağların Elxanilər dövründə (1256-1353) salınıb inkişaf etməsi ilə də bağlı məlumatlar vardır. Maraqlıdır ki, Qarabağlar türbəsinin də tikilməsi həmin dövrə təsadüf edir. Tədqiqatçılar türbənin ornamental xüsusiyyətlərinin Elxanilər dövründə formalaşdığını da qeyd etmişlər. Əlbəttə, türbənin xarici səthinin naxışlanmasında istifadə olunan ornamental motivlərin bir qismi yenidir və onlara Səlcuq memarlıq abidələrində rast gəlinmir. Lakin türbənin ornamental bəzəyində kökü min illər əvvələ bağlanan və müəyyən semantik məna ifadə edən ornamentlərdən də istifadə edilmişdir. Belə ornamentlərdən biri doqquz və onikiguşəli ulduzlardır. Bizcə, həndəsi ornamentlərin müxtəlif kombinasiyası doqquz və onikiguşəli ulduzların formalaşmasına xidmət etmişdir. Ornament bəzəyində səkkizbucaqlı həndəsi fiqurlar və səkkizguşəli ulduzlar da yer alır.

Qeyd etmək istəyirik ki, istər səkkiz, istər doqquz, istərsə də onikiguşəli ulduzlar astral simvolika və Azərbaycan ərazisində məskunlaşan ulu əcdadlarımızın dini inancları ilə bağlıdır. Ulu əcdadlarımız həmişə göyə və göy cisimlərinə sitayiş etmiş, onları müqəddəsləşdirmişlər. Aypara və səkkizguşəli ulduzun birlikdə təsvirinin ən qədim nümunəsinə biz Lulubi hökmdarı Anubaninin daş kitabəsində rast gəlirik. Burada Tanrının başı üzərində ay və səkkizguşəli ulduz təsviri vardır. Səkkizguşəli ulduz qadın tanrını simvolizə etmişdir. Belə təsvirlər Azərbaycanda, o cümlədən Naxçıvanda aşkar olunan qədim sənət nümunələri üzərində də vardır. Bu simvollar orta əsrlərdə simvolik bəzək nümunəsi kimi memarlığımızda geniş istifadə olunmuşdur. Həmin simvol ulu əcdadlarımızın inanclarını əks etdirir. Onların bu günədək yaşamasının sirri də budur. Bu simvollar Azərbaycan xalqının min illərdən bəri yaşayan birliyinin, bütövlüyünün və bərabərliyinin rəmzidir.

Çoxguşəli ulduzlar qədim Mesopotamiya sənətində Tanrını simvolizə etmişdir. Səma cisimlərinə, o cümlədən ulduzlara sitayiş monoteist dinlərdə də əks olunmuş, beş, altı, səkkiz, doqquz, onikiguşəli ulduzlar müxtəlif dinlərin, bəzən isə təriqətlərin simvolu olmuşdur. Belə təsvirlər əski inancların qalığı kimi Elxanilər dövrünə aid türk-monqol incəsənətində qorunub saxlanılmışdır.

Şübhəsiz ki, Elxanilər dövrünün memarlıq abidələri yerli ustalar tərəfindən yaradılmışdı. Çünki ilk monqol basqınları zamanı iqtisadiyyat və mədəniyyəti dağıdan monqollar məhz türk tayfalarının, xüsusilə bu ərazidə çoxdan məskunlaşan türk-müsəlman tayfalarının təsiri ilə mədəni nailiyyətləri və İslamı mənimsəmişdilər. Elxanilərdən xeyli əvvəl formalaşan Naxçıvan memarlıq məktəbi nümunələrində, Əlincəqaladan aşkar olunan ornament nümunələri arasında çoxguşəli ulduzlara rast gəlinir. Doqquzguşəli və onikiguşəli ulduzların seçilməsi Elxanilər dövrü memarlığının özünəməxsus xüsusiyyəti hesab oluna bilər.

Türbənin Qarabağlar kəndində tikilməsi, şübhəsiz ki, bu kəndin Elxanilər dövlətinin mühüm iqtisadi-mədəni mərkəzlərindən biri olması ilə bağlıdır. Tarixi mənbələrdən məlumdur ki, qədim dövrdən başlayaraq orta əsrlərədək Orta Asiyada yaşayan türk tayfalarının Azərbaycana axınları davam etmişdi. XIII əsrdə monqollarla birgə hərəkət edən türk tayfalarının böyük bir qismi Azərbaycanda məskunlaşmışdı.

Tədqiqatçıların fikrinə görə, “Qarabağlar” sözü qədim türk tayfası olan kəngərlərin bir qolunun adı ilə bağlı olub. Bu məlumat X əsr müəllifi Konstantinin Sibirdə yaşayan kəngərlərin bir tayfasının “qarabay” adlanması barədə dedikləri ilə uyğundur. Beləliklə, Qarabağlar tayfası kəngərlərin bir qolu hesab edilir. Bu tayfaların Azərbaycan xalqının formalaşmasında böyük rolu olub. Övliya Çələbi “Səyahətnamə” əsərində Qarabağlar kəndini qədim şəhər kimi təsvir etmişdir.

Qarabağlar Türbə Kompleksi qoşa minarə, onlar arasındakı baştağ, qoşa minarələrə birləşən dini binanın qalıqları və türbədən ibarətdir. Mütəxəssislər qoşa minarələrin XII-XIII əsrlərdə, baştağın isə XIV əsrdə tikildiyini qeyd etmişlər. Qoşa minarələrin və baştağın müxtəlif dövrlərə aid olması onların tikinti texnikasından da aydın görünür. Baştağın minarələrə sonradan əlavə edildiyi aydın şəkildə seçilir. “Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti”nin elmi katibi M.Mirheydərzadənin fikrinə görə, qoşa minarəli baştağın üzərində ərəb dilində “Allahın bu nişanəsi türkmən Qudi xatındır” sözləri yazılmışdır. Lakin son araşdırmalar zamanı məlum olmuşdur ki, türbə Qudi xatının əmri ilə tikilmişdir. Bəzi əsərlərdə Qudi xatının Hülakü xanın arvadı olduğu qeyd edilmişdir. Lakin bəzi tədqiqatçıların fikrinə görə, baştağda adı xatırlanan Qudi xatın, yaxud Qoday xatın, ola bilsin ki, Abaqa xanın (1265-1282) arvadı olmuş Qoday xatındır. Üslub və tikinti texnikası xüsusiyyətlərinə görə türbənin tikilmə tarixi Elxani hökmdarı Əbu Səid Bahadır xanın hakimiyyət illərinə (1319-1335) aid edilir.

Türbə kompleksindəki kitabələr yaxşı saxlanmasa da, tədqiqatçıların müxtəlif illərdə apardığı araşdırmaların paleoqrafik tədqiqi türbəni inşa edən memarın adını da dəqiqləşdirməyə imkan vermişdir. Tədqiqatçıların fikrinə görə, türbənin memarı Əyyub Əlhafiz oğlu memar Əhməddir.

Qarabağlar türbəsi sərdabə və yerüstü xatirə abidəsindən ibarətdir. Sərdabə onikibucaqlının mərkəzində yaradılan xaçşəkilli quruluşa malikdir. Divarları daşdan, günbəzi isə kərpicdən inşa edilmişdir. Ümumiyyətlə, qayaüstü təsvirlərdə, xalçalarımızda, tirmələrimizdə və memarlıq ornamentləri arasında rast gəlinən xaçşəkilli işarələr Azərbaycan xalqının qədim inamları ilə bağlıdır. Qeyd etmək istəyirik ki, xaçşəkilli təsvirlərin müxtəlif formaları e.ə.VI-I minilliklərdə qədim Şərq, Azərbaycan mədəniyyətində istifadə olunmuşdur. Bu tip ornamentlər semantik anlamda dünyanın dörd tərəfinə tapınmanı simvolizə etmiş və Şərq mədəniyyətində İslamın qəbulundan sonra da istifadə olunmuşdur. Xristian dini də bu simvolu qədim Şərq mədəniyyətindən götürmüşdür. Bu baxımdan türbənin sərdabə hissəsinin bu şəkildə inşa olunması onun qədim ideologiya ilə bağlı olduğunu təsdiq edir.

Bu ideologiya, həmçinin türbənin yerüstü hissəsində öz əksini tapmışdır. Türbənin yerüstü hissəsi daş kürsülük üzərində inşa olunan 12 yarımsilindrdən ibarətdir. Yerüstü hissənin özünəməxsus xüsusiyyətlərindən biri dünyanın dörd tərəfinə – şimal, şərq, cənub və qərbə yönəlmiş dörd baştağın olmasıdır. Bu isə dünyanın dörd tərəfinə tapınma ilə bağlıdır. Bir məsələni də qeyd etmək lazımdır ki, Azərbaycan əhalisi İslam dinini qəbul etsə də, islamaqədərki bir çox inancları da qoruyub saxlamışdır. Türbənin yerüstü hissəsində qədim və orta əsr inanclarının sintezi özünü aydın şəkildə göstərir. Türbənin səthi firuzəyi rəngli kaşılarla, həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilmişdir. Yarımsilindrlərin üzərində içərisində ərəb əlifbası ilə “Lə iləhə illəllah Məhəmmədən Rəsulallah” (Allahdan başqa Allah yoxdur, Məhəmməd (s.ə.v.) onun rəsuludur)” kəlməsi həkk edilən kvadratlar dəfələrlə təkrar olunmuşdur. Bu tip ornamentdən 1322-ci ildə inşa olunan Bərdə türbəsində də istifadə olunmuşdur. Elə buna görə də bəzi tədqiqatçılar Qarabağlar türbəsi ilə Bərdə türbəsinin memarının eyni şəxs olduğunu qeyd etmişlər. Bu bəzək elementindən Elxanilər dövrünə aid Olcaytu türbəsinin qülləsində, Orta İranda, Natanzda 1307-ci ildə inşa edilən məzar türbəsinin piramidal günbəzində, XVI-XVII əsrlərə aid Şeyx Səfiəddin kompleksinə aid tikintilərdə, Naxçıvan şəhərində XVIII əsrin əvvəllərində inşa edilən İmamzadə türbəsinin naxışlanmasında istifadə edilmişdir. Bu memarlıq bəzəyinin uzun müddət – XIV əsrdən XVIII əsrədək davam etməsi, şübhəsiz ki, bu ornamentin Naxçıvan memarlıq məktəbinə məxsus olduğunu və Səfəvilər dövründə də istifadə olunduğunu təsdiq edir. Lakin qeyd etməliyik ki, Qarabağlar türbəsi konstruksiyası ilə fərqlənir. Türbənin özünəməxsus memarlıq xüsusiyyətlərindən biri 4 baştağlı olmasıdır. Baştağların səthi kaşılar vasitəsilə həndəsi və nəbati üslubda naxışlanmışdır. Türbənin gövdəsini təşkil edən yarımsilindrlərin yuxarı hissəsində kaşılarla işlənmiş kitabələrin qalıqları saxlanmışdır. Ehtimal ki, bu kitabələr “Qurani-Kərim”dən götürülmüş kəlmələrdir. Memarlıq abidələrində və qəbirüstü monumental tikintilərdə bu tip kitabələrə rast gəlinir. Qarabağlar türbəsi konusvarı örtüyə sahib olmuşdur. Mütəxəssislərin fikrinə görə, bu örtük türbənin quruluşuna uyğun olaraq on iki yarımsilindrin birləşməsi şəklindədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə Qarabağlar Türbə Kompleksində aparılacaq bərpa işlərinin elmi layihəsini hazırlayarkən türbədə əks olunan qədim və orta əsr memarlıq elementlərini, habelə abidənin memarlıq üslubunu qoruyub saxlamağa çalışmışdır. Bütün bunlar deməyə əsas verir ki, hərtərəfli dövlət qayğısı ilə əhatə olunan türbə müvəffəqiyyətlə bərpa olunaraq orijinal görkəminə qovuşacaqdır.

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

## Ruhu rənglər dünyasında yaşayan rəssam

### *Üsullar dəyişir, amma sənət eyni qalır: o, təbiətin azad və duyğusal formada yorumlanmasıdır*

***İncəsənət insanın daxili gözəlliyinin ən yüksək təzahürüdür. İncəsənət adamları isə gözəlliklərlə yaşayan, öz dünyaları ilə başqalarından fərqlənən, daim gözəllik yaradan kəslərdir. Sənətin müxtəlif növləri arasında qarşılıqlı əlaqə, oxşarlıq, ümumi cəhətlər hələ qədim dövrlərdən mübahisə mövzusu və araşdırma obyekti olub. Xüsusən poeziya ilə rəssamlığın, sözlə təsvirin "qohumluğu" barədə Plutarxdan və Horatsidən tutmuş yeni dövr Avropa nəzəri-estetik fikir nümayəndələrinə qədər müxtəlif fikirlər söylənilib. Leonardo da Vinçi: "Rəssamlıq görünən poeziya, poeziya isə eşidilən rəssamlıqdır" fikrini irəli sürüb. Lessinq də rəssamlığı "lal poeziya", poeziyanı isə "danışan rəssamlıq" adlandırıb. Ümumiyyətlə götürdükdə incəsənətin hansı sahəsi olursa-olsun, o, ən yüksək mənəvi keyfiyyətləri və ali dəyərləri özündə birləşdirir.***





Rəssamlıq qəribə sənətdir. Bu sənəti seçən insanlar, adətən, özləri də qəribə xarakterli olurlar. Rənglər kimi onların da təbiəti müxtəlifçalarlıdır. Bu insanlar zəngin daxili aləmə, həssas qəlbə və bir də sərt xarakterə malik olurlar. Hər dəfə rənglərin çoxçalarlı dünyasına səyahət edəndə orada özlərini tapır, hisslərinə, duyğularına yovuşan rənglərdən möcüzələr yaradırlar.

Rəsm çəkmək özü bir ağıl işidir, duyğusal yönləri daha çox olsa belə. Ləman Məmmədova da məhz ağıl və hisslərinin köməyilə ecazkar rəsm əsərləri – incəsənət nümunələri ortaya çıxaran sənətkarlarımızdandır. O, 1995-1999-cu illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini, 1999-2001-ci illərdə həmin ali məktəbin magistratura pilləsini fərqlənmə diplomu ilə bitirib. 2001-ci ildən Naxçıvan Dövlət Universitetinin əməkdaşı, İncəsənət fakültəsinin Təsviri incəsənət kafedrasının baş müəllimi, Yeni Azərbaycan Partiyasının, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvüdür. Muxtar respublikada keçirilən sərgilərdə fəal iştirak edir. Eyni zamanda 35 elmi məqalənin, 1 metodik vəsaitin, 3 fənn proqramının da müəllifidir. Məqalələri xaricdə – ABŞ-ın, Türkiyənin, Rusiyanın elmi-kütləvi mətbuat orqanlarında dərc olunub. Hazırda Xalq rəssamı Hüseynqulu Əliyevin həmmüəllifi olduğu 2 kitabı nəşrə hazırlanır.

Ləman Məmmədova 2012-ci ildə Rusiya Federasiyasında konfransda iştirakına görə diploma, 2016-cı ildə Rusiya Elmi-İnnovasiya Mərkəzi tərəfindən elmi tədqiqatların inkişafında roluna görə fəxri fərmanla, 2016-cı ildə Beynəlxalq konfransda iştirakına görə sertifikatla, 2017-ci ildə Rusiyada "Elm günü" münasibətilə elmi tədqiqatların inkişafındakı roluna görə diploma, həmin ildə milli dəyərlərimizin təbliğat sahəsindəki səmərəli xidmətlərinə görə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən diploma təltif olunub.

Rəssamın çəkdiyi şəkillərə baxanda bu əsərlərin müəllifi doğma təbiətə vurğun, vətənini dərindən sevən bir yaradıcı insan, tarixi keçmişimizi gənc nəslə çatdıran nümunəvi bir müəllim kimi gözümüzdə ucalır. Əsərlərində daha çox muxtar respublikanın təbiəti, qədim dövrümüzü əks etdirən qalalar, tariximizi yaşadan Möminə xatın türbəsi, gözəl təbiət mənzərələri və natürmort janrındakı nümunələrə rast gəlmək olar. Özünəməxsus yaradıcılıq dəstxətti olan Ləman Məmmədova Xalq rəssamı Hüseynqulu Əliyevdən dərs alan bir tələbə kimi bu gün onunla bərabər bu sənəti davam etdirir. Əsərlərində rəssamın özünəməxsus üslubu, rəng koloriti müəyyənləşib. Möminə xatın türbəsinin axşam mənzərəsini ilk dəfə Ləman müəllimə kağız üzərinə köçürməklə tarixin yaddaşına həkk edib.

Qeyd edək ki, bu yaxınlarda Naxçıvan Dövlət Universitetində rəssamın əsərlərindən ibarət sərgi təşkil olunub. Tablolarındakı canlılıq sərgidə iştirak edən hər kəsin zövqünü oxşayıb və incəsənətin incə, ecazkar sahəsi hesab olunan rəssamlığa vurğunluq yaradıb. Buna görə də rəssam tablolarının ictimaiyyət arasında yayılmasına yardımçı olan, bu işdə əməyi olan hər bir kəsə minnətdardır. O, yaradıcılığa yüksək qiymət verilən, yaradıcı insanlara həssaslıqla yanaşılan mühitdə yaşayıb işlədiyi üçün özünü xoşbəxt sayır. Bu cür şəraitin yaradılması bütün rəssamlarımıza yaxşı işləmək üçün stimul verir, bir-birindən məzmunlu tabloların ortaya çıxmasına səbəb olur.

Ləman Məmmədova həm də biliklərini tələbələriylə bölüşən, tələbələrinin sevimlisi olan bir müəllimdir. Tələbələrinə bildiklərini öyrətməyə daim səy göstərən Ləman Məmmədova onların hər bir uğuruna, çəkdiyi əziyyətin hədər getmədiyinə sevinir. Tələbə-müəllim münasibətlərinin düzgün qoyuluşuna nail olan rəssam tələbələrinə qarşı tələbkar olmaqla öz peşəsinin öhdəsindən bacarıqla gəlir. O, tələbələrdə özünəinamı formalaşdırmaqla gənc rəssamların özünütəsdiqinə də hərtərəfli imkan yaradır.

Yazımın sonunu məşhur rəssam Pablo Pikassonun dəyərli fikirləri ilə yekunlaşdırmaq istəyirəm. "Hələ balaca olanda anam mənə deyərdi, əgər əsgər olsan general olacaqsan, rahib olsan papalığa yüksələcəksən. Amma mən rəssam oldum və Pikasso olaraq qaldım". Elə mən də, Ləman xanım, sizə məşhur rəssam olub tablolarınızın yüksək sərgi salonlarını bəzəməsini arzu edirəm.

**Səadət ƏLİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika və dünya ədəbiyyatı kafedrasının müəllimi***

## Dəmirçi kənd stadionu istifadəyə verilib



Muxtar respublikanın şəhər və rayonlarında bu gün hər sahədə olduğu kimi, idman sahəsində də müasir infrastruktur qurulur. Belə tədbirlərin davamı olaraq Şərur rayonunda Dəmirçi kənd stadionu istifadəyə verilib. Uzunluğu 105, eni isə 60 metr olan təbii ot örtüklü stadionun ərazisində 118 nəfərlik oturacaqlar quraşdırılıb. Bununla yanaşı, stadionun ərazisində 50 tamaşaçı tutumlu voleybol meydançası da inşa edilib və idman qurğuları quraşdırılıb. Stadionda muxtar respublika çempionatı üzrə oyunların, həm də rayon birinciliklərinin keçirilməsi nəzərdə tutulur.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov bildirib ki, ümummilli lider Heydər Əliyev ölkə rəhbəri olduğu ilk dövrdən gənclərin himayədarı kimi sağlamdüşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib. Dahi şəxsiyyət cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında gənclərin iştirakının təmin olunmasını vacib məsələlərdən biri kimi hər zaman diqqətdə saxlayıb. Muxtar respublikada da gənclərlə iş və idman sahəsində mühüm işlər görülüb. Belə ki, son 20 il ərzində burada idman infrastrukturunun yenidən qurulması, yeni idman obyektlərinin, olimpiya-idman komplekslərinin inşa edilməsi bu sahənin inkişafı ilə bağlı möhkəm təməl yaradıb.

"Bu gün muxtar respublikanın şəhər və rayonları ilə yanaşı, kəndlərində də idmanın kütləviliyinin təmin olunmasına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, artıq kəndlərdə yeni idman obyektləri tikilir və yenidən qurularaq gənclərin ixtiyarına verilir. Bunlardan biri də Dəmirçi kənd stadionudur", – deyən Azad Cabbarov qeyd edib ki, artıq stadionda oyunların keçirilməsi üçün hər bir şərait yaradılıb. Uşaq, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün stadionun ətrafında voleybol meydançası və idman qurğuları quraşdırılıb.

Yenidən təmir olunan stadionun açılış mərasimində çıxış edən Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov isə gəncləri bu münasibətlə təbrik edib və onlara uğurlar arzulayıb.

Sonra yeni istifadəyə verilən stadionda Aralıq və Dəmirçi kənd futbol komandaları arasında yoldaşlıq görüşü keçirilib. Görüş Aralıq komandasının 4:1 hesablı qələbəsi ilə yekunlaşıb.

**Ceyhun MƏMMƏDOV**

***Bu yaxınlarda "Naxçıvan" Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarovun "Turizm marşrutları və ekskursiya işinin təşkili" adlı dərs vəsaiti işıq üzü görüb. "Naxçıvan" Universitetinin Elmi Şurasının qərarı ilə çapa tövsiyə olunmuş kitab bu mövzuda Azərbaycan dilində ilk dəfə yazılmış əsərdir.***

*Yeni nəşrlər*

## Turizm marşrutları və ekskursiya fəaliyyətinə dair yeni kitab




Turizm və otelçilik ixtisası üzrə ali təhsil verən ali məktəblərin baza təhsil proqramında yer alan "Turizm marşrutları və ekskursiya işinin təşkili" fənninin tədrisi məqsədilə işlənmiş bu kitab tədris prosesi üçün əhəmiyyətli olub, 3 fəsildən ibarətdir. Birinci fəsildə turizm marşrutları və onların yaradılması, ikinci fəsildə ekskursiya fəaliyyəti və onun təşkili üzrə nəzəri məsələlərə dair 15 dərs mövzusu təqdim olunub.

Dərs vəsaitinin üçüncü fəslində müvafiq fotoşəkillərlə birgə Naxçıvan Muxtar Respublikasının turizm ehtiyatları timsalında konkret tur nümunələri və təqdimat reseptləri, həmçinin ekskursiyalar zamanı çoxişlənən turizm terminləri də verilib. Turizm destinasiyasında yaradılacaq marşrutların davamlılığı, onların texniki və iqtisadi cəhətdən əsaslandırılması, ekoloji maraqların, yerli əhalinin mənafelərinin ödənilməsi və təhlükəsizlik məsələləri üzrə mövzuları öyrənən tələbələr turizm marşrutu, turizm marşrutlarının yaradılmasına təsir edən amillər, tur və onun mahiyyəti, turların formalaşdırılması zamanı resursların düzgün qiymətləndirilməsi barədə biliklər əldə edə bilərlər.

Yeni nəşrdə ekskursiya fəaliyyətinin təşkili üçün əsas baza olan nəzəri və metodoloji biliklərin əldə olunması məqsədilə məntiqi ardıcıllığa əməl olunması, onun pedaqoji mahiyyətinin və təqdimatların keçirilməsi qaydalarının öyrənilməsinə xüsusi yer ayrılıb, konkret situasiyalar üzrə izahlar verilib. Bu baxımdan kitabda işlənmiş hər bir mövzuya dair təqdim olunmuş yoxlama suallar və testlər tələbələrin bu fənn üzrə biliklərinin möhkəmləndirilməsi üçün də əhəmiyyətlidir.

Kitabdan turizm ixtisasında dərs deyən müəllimlər, bu sahə üzrə təhsil alan bakalavr və magistrantlar, turizm sahəsində çalışan mütəxəssislər, o cümlədən turizm və səyahət məsələləri ilə maraqlananlar faydalana bilərlər.

**Mehriban İMANOVA**
***iqtisad üzrə fəlsəfə doktoru***

## Balın tərkibi və keyfiyyəti dəqiqliklə müəyyən olunur






Muxtar respublikamızda qida təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Naxçıvan Gömrük Ekspertizası İdarəsinin sınaq laboratoriyasında arıçılıq məhsullarının ekspertizası da həyata keçirilir. Bu vaxta qədər mikroskop testi ilə balda saxaroza kristallarının mövcudluğuna və çiçək tozcuqlarının yayılımına baxış keçirilməsi mümkün idi. Qeyd edək ki, saxaroza kristallarının mövcudluğu arıya şəkər məhlulu verilməsindən, tozcuq yayılımının qeyri-mütənasibliyi isə iki və ya daha çox balın bir-birinə qarışdırılmasından xəbər verir.

Naxçıvan Gömrük Ekspertizası İdarəsi üçün yeni alınmış "Reflactoquant" markalı analizator cihazı isə balın tərkibində ümumi şəkərliliyi, saxaroza və hidroksimetil furfurolun (HMF) miqdarını dəqiq müəyyən etməyə imkan verir.

Qeyd edək ki, təbii balın əsas tərkibi fruktoza və qlükozadan ibarətdir ki, buna da ümumi şəkərlilik deyilir. Balın tərkibində fruktoza və qlükozanın miqdarının ümumi cəmi 60 faizdən aşağı olmamalıdır. Balın növündən asılı olaraq tərkibindəki suyun miqdarı maksimum 20, saxarozanın miqdarı isə maksimum 15 faiz təşkil edir. Həmçinin tozcuqlar və sair də ümumi tərkibə daxildir. Təbii balın tərkibində HMF-nin miqdarı da diqqət yetiriləsi cəhətlərdən biridir. Bu göstərici balın təzə və ya köhnəliyindən xəbər verir. Düzdür, bal xarab olmayan yeganə qida olsa da, qalıqca keyfiyyətinin müəyyən qədər aşağı düşdüyü də məlumdur. HMF-nin miqdarı hər kiloqramda 25 milliqramdan çox deyilsə, bal təzə və keyfiyyətli hesab olunur.

Sonda vurğulamaq yerinə düşər ki, muxtar respublikamızda əlverişli təbii iqlim şəraitinin və zəngin bitki örtüyünün olması, həmçinin ənənəvi təsərrüfat sahəsi kimi arıçılıqda əldə edilən böyük təcrübə Naxçıvan balını fərqləndirən əsas cəhətlərdəndir. Naxçıvan Gömrük Ekspertizası İdarəsinin sınaq laboratoriyası üçün alınan və Almaniya istehsalı olan bu analizator cihazı arıçılıq məhsullarının keyfiyyət göstəricilərinin yüksək olmasına nəzarəti təmin etməklə brend məhsullarımızdan olan balın şöhrətinin yüksəlməsi, ona olan tələbatın artması baxımından da əhəmiyyətlidir. İstər sahibkarlar, istərsə də istehlakçılar laboratoriyaya müraciət etməklə istehsal və ya istifadə etdikləri balın tərkibini və keyfiyyətini bir neçə saat ərzində öyrənə bilərlər. Bu isə qida və müalicəvi əhəmiyyəti baxımından çox faydalı olan bu əvəzsiz nemətin keyfiyyəti ilə bağlı tərəddüd etmədən ondan rahatlıqla istifadə etməyə imkan verəcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1000. Sifariş № 511**